# İmadəddin Nəsimi Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında



Zeynalov H.Ə. Nəsimi – Nəiminin müasiridir

**Sevinc Quliyeva,**
Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı
E-mail: *seva.quliyeva.2018@inbox.ru*

Ümumşərq miqyasında geniş yayılmış hürufilik təriqətinə mənsub bir təfəkkür sahibi olan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük mütəfəkkirin 600 illiyinin UNESCO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına salındığı və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çoxsaylı araşdırmalar aparılıb. Yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açıb. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Dahi söz ustasının obrazı və yaradıcılığı ilə bir çox sahələrə təsiri danılmazdır. Ölməz yaradıcılığı ilə sənətkarların ideal obrazına çevrilmiş şairə münasibət təsviri incəsənətdən də yan ötməmişdir. Yaradıcılıqlarında Nəsimi lirikasını rənglər vasitəsi ilə insan duyğularına ötürmək istəyən rəssamlar bu mövzunu həmişə ön planda saxlamışlar. Yaradıcı dünyagörüşlərini Nəsimi irsi ilə daha da zənginləşdirən dahi rəssamların qiymətli əsərlərindən bir çoxu hal-hazırda Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında ildən-ilə, nəsildən-nəslə ötürülərək mühafizə olunur.

Azərbaycan Dövlət Rəsm Qalereyasının əsərlər xəzinəsi içərisində Xalq rəssamı Mikayıl Abdullayevin Nəsimi kompozisiyalı portreti xüsusi dəyərə malikdir. Zəngin bir xəzinəyə yiyələnmiş və yaratdığı əsərlərlə özündən sonra böyük bir irs qoyub getmiş rəssamın irsi daxili həyəcan, obrazların psixologiyasının poetik ümumiləşdirilməsi ilə xarakterikdir. Kolorit zənginliyi ilə fərqlənən portretdə Nəsimi obrazı, onun faciəvi taleyi, şairin dərin dünya baxışının genişliyini və humanizmi əks etdirən heyrətamiz siması sanki təsvir olunduğu şəhər üzərində günəştək işıq saçmışdır. Əsərdə Nəsiminin əbasının göy üzünün, üfüqün və dənizin rəngi mavi rəngdə əks etdirilməsi təsadüfi deyildir. Uzaqgörənliyin və sərhədsizliyin simvolu olan mavi rəng rəssamın obrazın şəxsiyyətinə incə bir toxunuşudur. Əsərdə şairin şəhər mənzərəsi üzərində təsviri Nəsimi obrazının laməkan kulturoloji ideyasına söykənmişdir.

Dahi şair özünün şəhdi-şəkəri, xalq dilinin zəngin şırnaqlarından gələn əsərləri, xüsusən də valehedici qəzəlləri ilə Azərbaycan şeir dilinə ilk dəfə kamil ədəbi dil əyarı vurmuş, həmin dövr üçün ən yüksək nümunələrini yaratmışdır. Nəsiminin qəzəlləri intəhasız bədii zövq mənbəyi olmaqla yanaşı, həm də zamanının çoxsahəli, dolğun biliklərini özündə əks etdirən qiymətli məlumatlar toplusudur.

Bu xəzinəyə fərqli baxış əks etdirən Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasının digər nümunəsi Sadıq Şərifzadənin "Nəsimi məhkəmədən qabaq" adlı kompozisiyasıdır. S.Şərifzadənin süjetli tablolarının bir qismini adət-ənənələr, xalqımızın minilliklərlə formalaşdırdığı və sevə-sevə yaşatdığı milli və etnoqrafik xüsusiyyətlər təşkil edir. Belə xüsusiyyətləri özündə birləşdirən tabloda dünya ədəbiyyatında sarsılmaz iradəsi və möhkəm əqidəsi ilə şəxsiyyətin bütövlüyü və əzəmətinin daşıyıcısı əks olunur. İnsan qüdrətini tərənnüm edən Nəsiminin poeziyasında mübarizə ruhu tabloda bütün gerçəkliyi ilə vurğulanmışdır.

Böyük sənətkarlar, bir qayda olaraq, görkəmli şairlərin yaradıcılığını yaxşı bilirlər. Ümumiyyətlə, rəssam təbiəti belədir ki, oxuduğu, gördüyü əsərlərdə rast gəldiyi çox orijinal, gözəl bir deyim, yeni ifadə tərzi onun zehnində ilişib qalır, özünün təzə fikir və qənaətlərinin ifadəsi üçün gözləmədiyi halda bir təkan, impuls olur; bəzən dərhal, bəzən də üstündən xeyli vaxt keçdikdən sonra onu yeni biçimdə öz orijinal sözünü deməyə ruhlandırır.





Qasımov B.Ə. "Nəsimi" poemasına illüstrasiya



Qasımov B.Ə. "Nəsimi" poemasına illüstrasiya



Belə böyük sənətkarlarımızdan biri Əməkdar rəssam Hafiz Zeynalovdur. Təsviri sənətin elə bir janrı yoxdur ki, Hafiz Zeynalov təxəyyülü və fırçası ondan yan keçmiş olsun. İstedadı rəssama Azərbaycan xalqının yaxın və uzaq keçmişini əks etdirən tarixi kompozisiyaların, tanınmış incəsənət xadimlərinin, şairlərin, yazıçıların, aktyorların obrazlarını yaratmaq imkanı vermişdir. O, həmçinin bir sıra məişət janrlı orijinal tabloların, rəngarəng natürmortların, füsunkar təbiət mənzərələrinin müəllifidir. Hafiz Zeynalovun əsərlərində doğma Bakı, qədim İçərişəhər, bənzərsiz Abşeron torpağı öz əksini tapıb. Bu əsərlərə uğur qazandıran başlıca səbəb müəllifin mövzuya dərindən bələdçiliyidir. H.Zeynalov tabloya gətirdiyi məkanın tarixini, etnoqrafiyasını, həyat tərzini, məişətini dərindən öyrənərdi. Sənətkarın Azərbaycan ədəbiyyatına, incəsənətinə vurğunluğu və vaqifliyi isə onun portret janrında özünü göstərir. Portret janrında yaradılmış ən dəyərli əsərlərindən biri də hürufiliyin banisi, Nəsiminin ustadı Fəzlullah Nəiminin eyni məhəbbətlə işlədiyi portretidir. Hürufilik təriqətinin banisi, məşhur şair və mütəfəkkir şeyx Fəzlullah Nəiminin fəlsəfi görüşləri Nəsiminin yaradıcılığı və dünyagörüşündə silinməz iz buraxıb. Nəsimi Fəzlullah Nəimini mürşid və bir müəllim kimi sevərək hürufiliyi qəbul edib.

Əsərdə Nəimi fikirli görünür. Sanki "Vəsiyyətnamə"nin son səhifələrini yazır. Elə bil olacaq hadisələrin – özünün də, davamçısı Nəsiminin də başına gələcək faciələri əvvəlcədən duyur. Yaxınlaşan fəlakəti xəbər vermək üçün müəllif başqa bir üslubdan da istifadə edib. Buludlu səmanı və göydə narahat-narahat uçuşan qara qağayıları göstərməklə fırtınanın yaxınlaşdığını çatdırıb.

Nəsimi yaradıcılığının böyük tərbiyəvi və maarifçi əhəmiyyəti vardır. Kamil insan düsturu gənc nəslin əxlaqi tərbiyəsində böyük rol oynayır, oxucuların gözü qarşısında kamillik mərhələlərini açır. Bu kamillik, insan qüdrəti heyranedici bir himn kimi səslənir. Və bu gözəllik, bu qüdrət dünyada bütün insanlara deyil, yalnız özünü tanımış, dərk etmiş kamil insanlara xasdır. Nəsiminin əsərlərində hər kəsə özünü tanımaq yollarını göstərmək, kamil insan yetişdirmək, bacarıqları üzə çıxarmaq və onlara istiqamət vermək kimi ideyalar müasir pedaqoji fikrin əsas prinsipləri ilə uzlaşır.

Sadalanan məqamları əsərlərində məharətlə göstərən fırça ustalarından biri də Xalq rəssamı Altay Hacıyevdir. Altay Hacıyev Azərbaycan xalqının yetirdiyi görkəmli şəxsiyyətlərin unudulmaz obrazlarını məhz qədim miniatür sənətimizə, ədəbi-mədəni fikir tariximizə və çoxəsrlik ənənələrimizə bağlılığı sayəsində tam dolğunluğu ilə canlandırmağa müvəffəq olmuşdur. Bu əsərlər böyük bədii-estetik təsir qüvvəsinə malikdir, vətənə məhəbbət duyğusu təlqin edir və gənc nəslin vətənpərvərlik ruhunda əhəmiyyətli rol oynayır. Rəssamın yaradıcılığında kitab qrafikasının xüsusi yeri var. Altay Hacıyev bir çox kitablara bədii tərtibat vermiş, həmçinin əsərlərə illüstrasiyalar çəkmişdir. Belə əsərlərə nümunə kimi Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında mühafizə olunan İ.Nəsiminin seçilmiş lirikası kitabına illüstrasiyaları xüsusilə qeyd edilməlidir.

Nəsimi irsinin qorunması və təbliğinin inkişafında qadın rəssamlarımızın xüsusi xidmətləri olub. Mənəvi yaradıcılıq potensialı tələb olunmaqla yanaşı, ondan da artıq fiziki əmək sərf edilən təsviri sənətin görkəmli qadın rəssamlarından biri Xalq rəssamı Elmira Şaxtaxtinskayadır.



Hacıyev A.Ə. "İ.Nəsiminin seçilmiş lirikası" kitabına illüstrasiya







E.Şaxtaxtinskaya bu silsilədən olan əsərlər yaratmaqla həm də ölkəsinin milli mənəvi dəyərlərinə sayğısını, öz qədim mədəniyyətinə sahib çıxdığını, özünün vətəndaşlıq mövqeyini bir daha göstərmişdir. Digər tərəfdən isə bu əsərlər – Azərbaycanın qədim mədəniyyət abidələrinin, elm, ədəbiyyat və incəsənət xadimlərinin təsvirləri ölkəmizin minilliklərlə formalaşmış zəngin mədəniyyətinin dünyaya tanıdılmasında misilsiz qaynaqlardır. Belə əsərlərindən biri də Nəsiminin 600 illik yubileyinə həsr olunmuş plakatıdır. Rəssamın bu silsiləyə daxil olan plakat əsərləri bir-birini tamamlayır və eyni zamanda hər biri ayrı-ayrılıqda müstəqil əsərlərdir. Onlara nəzər saldıqda Azərbaycanın dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlərin cəlbedici, yüksək bədii-estetik məziyyətə malik, son dərəcə inandırıcı və təkraredilməz sənət üslubuyla yaradılmış obrazları ilə tanış olursan. E.Şaxtaxtinskaya yaradacağı şəxsin obrazı üzərində işləyərkən, ilk növbədə, həmin şəxsiyyətin yaşadığı dövr, həyat və yaradıcılığı haqqında araşdırmalar aparır, onu hərtərəfli öyrənir və sonra obrazını yaradırdı. Bir sözlə, rəssam işinə çox ciddi yanaşaraq, apardığı gərgin yaradıcılıq müşahidələrini uğurlu əsərlər yaratmaqla sona yetirirdi. Məhz bunun nəticəsidir ki, əsərləri tamaşaçının duyğularını riqqətə gətirir, onu düşündürür.

Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında mühafizə olunan Y.İ.Hüseynov "Nəsimi – mütəfəkkir", M.H.Useynov "Döyüşdən sonra", B.Ə.Qasımov "Nəsimi poemasına eskiz" və s. bu qiymətli xəzinələr toplusuna daxildir. ❖

**Ədəbiyyat:**

1. http://infosourceazgallery.az/arts/index/
2. https://www.ens.az/az/imadeddin-nesimi
3. http://anl.az/down/meqale/
4. https://nuhcixan.az/news/cemiyyet/11167-imadeddin-nesimi-yaradiciliginda-terbiyevi-ideyalar

**Резюме**

Разностороннее богатое творчество Насими является неотъемлемой частью художественного наследия современного Азербайджана и стало яркой страницей в искусстве азербайджанского искусства. Ряд публикаций, посвященных художественному творчеству художника, его творческим талантам, формированию и процветанию его искусства, подтверждают его влияние на современное азербайджанское искусство как неоспоримый факт.

**Ключевые слова:** плакат, бытовой жанр, натюрморт.

**Summary**

Nasimi versatile rich art is an integral part of the artistic heritage of modern Azerbaijan and has become a bright page in the art of Azerbaijani art. A number of publications devoted to the artist's artistic creativity, his creative talents, the formation and prosperity of his art, confirm his influence on contemporary Azerbaijani art as an indisputable fact.

**Key words:** placat, landscape, genre, still life.